Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

**5.3.7.İşğaldan azad olunmuş ərazilərə "Böyük Qayıdış"**

# Böyük Qayıdışın üçüncü dalğası - Ağalı kənd icması bütövləşdi...



**Azərbaycan xalqı və dövləti azad edilmiş ərazilərimizə Böyük Qayıdışın sevincini yaşayır. Böyük Qayıdışın ilk addımı olaraq Ağalı kənd sakinlərinin ilk qrupu 19 iyul 2022-ci ildə Şərqi Zəngəzurun Zəngilan rayonuna köçürülüb. Sentyabrın 7-də isə Ağalı kəndinə əhalinin köçürülməsinin ikinci mərhələsinə başlanılıb.**

Məlumat üçün qeyd edək ki, Zəngilan rayonunda "ağıllı kənd" konsepsiyası əsasında yenidən salınmış Ağalı kəndinə Böyük Qayıdışa uyğun olaraq daha 25 ailə (125 nəfər) köçürüb. On iki ailədən ibarət birinci köç karvanı Abşeron rayonunun Masazır kəndindəki "Zəngilan şəhərciyi"ndən yola düşüb. Sentyabrın 9-da isə ikinci köç karvanı ilə digər 13 ailənin məcburi köçkünlük həyatı başa çatıb.

**Vətənə gəldim, imana gəldim!**

Vətən, doğma torpaq anlayışı bizim üçün daha dərin məna, mahiyyət kəsb edir. Öz yurdlarına dönən Ağalı sakinlərinin içində elə duyğular var ki, onu sözə çevirmək çox çətindir. Böyük Qayıdışı səbrsizliklə gözləyən məcburi köçkünlər onun sevincini yaşadıqca həyacan keçirirlər. Onlar Böyük Qayıdışın işığında geriyə köç edirlər və bir daha öz yurdlarını tərk etməyəcəklərinə böyük inamları var. Əlbəttə, onlar o yurdlara əbədi qayıdırlar.

Bildirək ki, Böyük Qayıdış İkinci Qarabağ müharibəsindən sonra Azərbaycanın Qarabağı və Şərqi Zəngəzuru bərpa etmək prosesinə verilən addır. Buraya dağılmış şəhərlərin və binaların yenidən qurulması, ağıllı kəndlərin, eləcə də hava limanlarının tikintisi daxildir. Qeyd etdiyimiz kimi, artıq geri qayıdış prosesinə başlanılıb və insanlarımız yenidən öz doğma yurdlarına qayıdırlar. Məcburi köçkünlər işğal olan torpaqların azad edilməsini nə qədər sevinirdilərsə, bir o qədər də öz dədə-baba yurdlarına qaytdıqlarına sevinirlər. Bu günü illərlə xəyallarında canlandıran insanlar idi bunu gerçək yaşayırlar. Prezident İlham Əliyev Böyük Qayıdışın anonsunu verərkən bildirirdi ki, bu qayıdış ilk olaraq Ermənistanla sərhəddə yerləşən, Zəngəzurun bir hissəsi sayılan Zəngilanda gerçəkləşdiriləcək, orada isə "ağıllı kənd" modeli tətbiq olunacaq. Bu innovasiya yalnız Qarabağda yox, Azərbaycanın digər ərazilərində də tətbiq olunacaq. Proses Prezidentin elan etdiyi kimi reallaşır.

**Zəngilan torpağında həyat qurulur...**

Zəngilan özünün yeni dövrünü yaşayır. İşğaldan azad olunduqdan sonra həyatın canlandığı Zəngilan rayonunun Ağalı kəndinə keçmiş məcburi köçkünlərin qayıdışının davam etməsi prosesinə şahidlik etməyimizin özü də ayrı bir xoşbəxtlikdir. Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Zəngilana qayıdışın ikinci mərhələsi çərçivəsində neçə-neçə ailənin məcburi köçkün həyatına son qoyulub, onlar artıq bu adla vidalaşıblar. Müşahidəçilər qeyd edirlər ki, otuz ilə yaxın Vətən həsrəti ilə yaşayan zəngilanlılar kəndə sevinc göz yaşları ilə qədəm qoyublar. Onları kənd mərkəzində qarşılayan Şərqi Zəngəzur İqtisadi rayonuna daxil olan Zəngilan rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev sakinləri doğma yurduna qayıtması münasibəti ilə təbrik edərək, göz aydınlığı verib. Sakinlərə kənd haqqında məlumat verilib və bildirilib ki, əhalinin rifah içərisində yaşaması üçün kənddə bütün zəruri şərait yaradılıb.

**Böyük Qayıdışın təntənəsi...**

Azərbaycanın tarixi qələbəsi Böyük Qayıdışın əsasını qoyub. Məlum olduğu kimi, torpaqlarımız azad ediləndən dərhal sonra Böyük Qayıdış Konsepsiyası ortaya çıxdı və məcburi köçkünlərin geri qayıdışı pioritet məsələ kimi qarşıya qoyuldu.

Ekspertlər xatırladırlar ki, dövlətimiz müharibədən sonra dərhal düzgün istiqamət götürüb quruculuq-bərpa işlərinə start verdi. 2020-ci ilin yekunlarına həsr olunan videoformatda keçirilən müşavirədə Prezident İlham Əliyev bəyan edirdi ki, ənənəvi infrastruktur layihələri demək olar ki, başa çatmaq üzrədir, ona görə əsas diqqət işğaldan azad edilmiş torpaqlara yönəldilməlidir. Bütün bunlar gerçəkləşdi və Azərbaycanın prioriteti Qarabağa qayıdışdır və Qayıdışın tam olaraq icra edilməsidir. Təbii ki, təkcə Zəngilanın Ağalı kəndinə deyil, işğaldan azad olunmuş bütün şəhər və rayonlara Böyük Qayıdış həyata keçiriləcək. Əlbəttə, kəndlərimiz, şəhərlərimiz yenidən qurulacaq, yurd həsrəti ilə yaşayan məcburi köçkünlər doğma ellərinə dönəcəklər və o yerlərdə həyatın rəngi, ahəngi dəyişəcək. Heç şübhəsiz ki, Azərbaycan dövləti onların layiqli həyatını təmin edir və edəcək də. Böyük Qayıdışa xidmət edən layihələrin icrası olduqca sürətlə gedir və mərhələli şəkildə qayıdışın addımlarını eşidirik. 2022-ci il Azərbaycan tarixinə böyük qayıdış ili kimi düşəcək. Məlumata görə, İkinci Ağalı kəndi ərazisində də inşa edilən "ağıllı kənd"'də 200 fərdi ev, ikimərtəbəli 4 qeyri-yaşayış binası, 360 şagird üçün nəzərədə tutulan məktəb və 60 yerlik uşaq bağçasının tikintisi başa çatıb. Kənddə içməli su təminatı həll edilib, park meydanı inşa olunub, burada fəvvarələr, piyada və velosiped yolları qurulub.

**"Bu gün Ağalıda əsl bayram əhval-ruhiyyəsi hökm sürür"**

Ağalı kənd tam orta məktəbinin direktoru Nərmin Həsənova Ağalı məktəbindən danışarkən deyib: "Məktəbimizin birinci məqsədi ölkəmizə yararlı olan müasir düşüncəli, yüksək əxlaqa mənsub, savadlı və vətənpərvər şəxsiyyətlər yetişdirməkdir".

O Ağalı kənd sakinlərinin ilk qrupu bu il iyulun 19-da, ikinci qrupu isə sentyabrın 7-də doğma yurda qayıtdığını vurğulayıb:"Bu hadisə, əlbəttə ki, Azərbaycan xalqı üçün Qələbədən sonra yaşadığı ikinci böyük sevinc idi. Bu gün Ağalıda əsl bayram əhvali-ruhiyyəsi hökm sürür. Otuz il bundan əvvəl öz ata-baba yurdundan didərgin düşmüş kənd sakinləri yenidən bu torpağa qayıdır, öz doğma nəfəsləri ilə torpağa can verirlər. İllərlə yetim qalıb, boynubükük şəkildə əsl sakinlərini gözləyən kənd öz qollarını əzizləri üçün açır. Burada həyat yenidən canlanır".

Qeyd etdiyimiz kimi, 2022-ci il Böyük Qayıdışın təntənəsini, sevincini yaşadığımız ildir və bu il başlanan prosesin yaxın illərdə uğurla başa çatacağına inanırıq.

***İradə SARIYEVA***

***Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.***